**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA AZƏRBAYCAN RESPUBLİKASININ REGİON DÖVLƏTLƏRİ İLƏ MÜNASİBƏTLƏRİ

İxtisas: 5901.01 – "Beynəlxalq münasibətlər"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Üzeyir Habil oğlu Mustafayev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Beynəlxalq Münasibətlər və xarici siyasət” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: siyasi elmlər doktoru, professor
**Elman Xudam oğlu Nəsirov**

Rəsmi opponentlər: siyasi elmlər doktoru professor
**Hikmət Baba oğlu Məmmədov**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Rəşad Əsəd oğlu Sadıqov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Zümrüd Eldar qızı Məlikova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, professor
**Elçin İldırım oğlu Əhmədov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Sovet Sosialist Respublikaları İttifaqının (bundan sonra SSRİ) dağılması nəticəsində yaranmış qeyri-müəyyən və xaotik geosiyasi vəziyyət XX əsrin 80-ci illərindən etibarən Qarabağda baş qaldırmış erməni speratizminin daha da genişlənməsinə - Birinci Qarabağ müharibəsinə səbəb oldu. Münaqişənin tənzimlənməsi istiqamətində baza prinsiplər qəbul edilsə də, Ermənistan tərəfindən davamlı şəkildə yeni iddiaların ortaya atılması münaqişənin dinc yolla tənzimlənməsini mümkünsüzə çevirmiş oldu. Ümummilli lider Heydər Əliyev 1997-ci ildə ABŞ-ın "OİL and GAS" xəbərlər redaksiyasına verdiyi müsahibədə Ermənistanın münaqişənin dinc üsulla tənzimlənməsinin əleyhinə olan siyasəti barəsində bildirmişdir – "Ermənistan Dağlıq Qarabağa müstəqillik statusu almaq istəyir. Beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar da bununla razı ola bilməz. Çünki bu iddia beynəlxalq hüquq normalarına ziddir. Çünki biz Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verə bilmərik".[1] Ermənistanın desturuktiv mövqeyi, yalnız danışıqlar prosesiniləngitməyə xidmət etmişdir. Ermənistanda 2018-ci ildə baş vermiş hakimiyyət dəyişikliyi belə, danışıqlar prosesinə müsbət təsir etmədi.

Xüsusilə qeyd etmək lazımdır ki, Ermənistanda hakimiyyət dəyişikliyindən sonra formalaşan yeni hökumətin dövründə daha da artan gərginlik, Azərbaycan xalqının milli dəyərləri nəzərə alınmadan atılmış bir sıra addımlar, Ermənistan rəsmilərinin Azərbaycana qarşı açıq şəkildə səsləndirdiyi təcavüzkar bəyanatlar və 2020-ci ilin əvvəlindən etibarən artıq keçmiş deyə biləcəyimiz cəbhə boyunca intensivləşmiş hərbi təxribatlar 27 sentyabr – 10 noyabr 2020-ci il tarixləri aralığında baş verən İkinci Qarabağ müharibəsi ilə nəticələndi. İkinci Qarabağ müharibəsi Cənubi Qafqaz bölgəsindəki regional təhlükəsizlik arxitekturasını kökündən dəyişdi.

---

[1] Ümummilli lider Heydər Əliyev 1997-ci ildə ABŞ-ın "OİL and GAS" xəbərlər redaksiyasına verdiyi müsahibə: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, - Avqust 02, 1997. URL: https://files.preslib.az/projects/heydaraliyev/musahibeler.pdf

Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etməsi regionda yeni bir mərhələnin – sülh və inkişaf üçün fürsət dövrünün başlanmasında əsas rol oynadı. İkinci Qarabağ müharibəsinin nəticələri yalnız Cənubi Qafqaz regionunun üç dövləti olan Azərbaycan, Gürcüstan və Ermənistan münasibətlərinə təsir etməklə qalmadı. Cənubi Qafqazda yeni geosiyasi reallığın uzunmüddətli və dinc şəraitdə davam etməsi, habelə region ölkələri arasında əməkdaşlıq və təhlükəsizlik problemlərinin birgə həlli üçün səmərəli dialoqun yaradılması şərtə çevrildi. Geniş müzakirələrə səbəb olmuş "3+3" və ya "5+1" əməkdaşlıq formulu həm bölgə ölkələri, həm də bölgə ilə bağlı maraqları kəsişən regional güclər üçün kifayət qədər səmərəlidir. Burada Azərbaycan, Rusiya, Türkiyə, İran, Gürcüstan və Ermənistanın birgə əməkdaşlıq etməsi və ortaq fəaliyyət nəticəsində ölkələr arasında iqtisadi dövriyyənin artması nəzərdə tutulmuşdur. Son dövrdə geniş müzakirələrə səbəb olan Zəngəzur dəhlizi həmin 6 dövlət üçün geosiyasi və geoiqtisadi aspektlərdə eyni dərəcədə əhəmiyyət kəsb edir. Yeni geosiyasi reallığın siyasi-diplomatik rəmzi "3+3" ("5+1") formulunun təşəbbüskarı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. Bu formulun reallaşması üçün konkret təkliflər irəli sürülür.

Müharibənin Azərbaycan üçün qalibiyyətlə sonlanması Azərbaycan Respublikasının olduğu regiondakı dövlətlərlə, yəni qonşu ölkələrlə olan münasibətlərinə ciddi şəkildə təsir etdi. Münasibətlər regiondakı yeni reallıq, yəni Azərbaycanın tarixi zəfəri kontekstində dəyişən geosiyasi vəziyyətə müvafiq olaraq transformasiya olunmağa başladı.

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranmış yeni geosiyasi konfiqurasiya və reallıqlar məsələsinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayındakı giriş nitqində toxunaraq bildirmişdir ki - "Bu gün yeni bir vəziyyət yaranıb, bu vəziyyəti biz yaratmışıq. Biz reallıqlar yaradan ölkəyik və bundan əvvəlki

dövrlərdə də bizim təşəbbüsümüzlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirib, əməkdaşlığın yeni formatlarını şərtləndirib.”[2]

Yuxarıda qeyd etdiyimiz kimi, bu problem indiyədək sistemli şəkildə, ayrıca tədqiqat obyekti olmasa da mövzunun ayrı-ayrı istiqamətləri ilə bağlı həm Azərbaycanda, həm də xarici ölkələrdə bir sıra tədqiqatlar aparılmışdır. Ona görə də dissertasiyanın yazılması prosesində həmin əsərlərdən istifadə edilmişdir. Tədqiqatçıların əsərlərində dünyada və ölkədə baş verən ictimai-siyasi proseslərlə, baş verən hadisələrlə, qlobal dəyişikliklərlə bağlı fikirlər, elmi nəticələr, proqnozlar mühüm əhəmiyyət kəsb edir.

Problemlə bağlı E.İ. Əhmədov “Heydər Əliyev və Azərbaycanın milli maraqlara əsaslanan dövlət siyasəti” adlı kitabında Ulu Öndər Heydər Əliyev tərəfindən respublika quruculuğu istiqamətində görülən işlər, eyni zamanda İkinci Qarabağ müharibəsi və postmüharibə dövründə Azərbaycan Respublikasının öz suverenliyini tam bərpası kimi tarixi hadisələr tədqiq edilmişdir.[3]

N.A.Əliyevin “Восстановление Территориальной Целостности и Суверенитета Азербайджана: Правовые Аспекты” adlı kitabında ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi, daha sonra onlar tərəfindən qaldırılmış ərazi iddiaları tədqiq olunmuşdur. Müəllif tərəfindən Azərbaycan Respublikasının ərazi suverenliyinin bərpası olunmasının hüquqi tərəfləri araşdırılmışdır.[4]

İ.M. Hüseynova “İlham Əliyev və Zəfər tariximizin şanlı səhifələri” adlı monoqrafiya yazmışdır. Bəhs edilən monoqrafiyada İkinci Qarabağ müharibəsinin başlanmasının şərtləndirən amillər, onun gedişatı və postmüharibə dövr quruculuq işləri barəsində geniş araşdırma yer almışdır.[5]

---

[2] İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayındakı giriş nitqi: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, - Mart 05, 2021. URL: https://president.az/az/articles/view/50798

[3] Əhmədov, E.İ. Heydər Əliyev və Azərbaycanın milli maraqlara əsaslanan dövlət siyasəti / E.İ. Əhmədov. – Bakı: Zərdabi LTD MMC, - 2023.- 200 s.

[4] Əliyev, N.A. Восстановление Территориальной Целостности и Суверенитета Азербайджана: Правовые Аспекты / N.A Əliyev. – Bakı: Elm və Təhsil, -2023.- 125 с.

[5] Hüseynova, İ.M. İlham Əliyev və Zəfər tariximizin şanlı səhifələri / İ.M. Hüseynova. – Bakı: Füyuzat, - 2021.- 74 s.

R.M.Sevdamalıyev və E.R.Sevdamalıyevin birgə həmmüəllifliyi ilə yazılmış “İkinci Qarabağ müharibəsi və Yeni Geosiyasi Reallıqlar” kitabında İkinci Qarabağ müharibəsindən sonra regionda dəyişən geosiyasi vəziyyət təhlil olunaraq, Azərbaycan-Ermənistan arasındakı diplomatik təmaslar, Cənubi Qafqazda sülhün bərpa olunmasına qarşı olan qüvvələrin fəaliyyəti araşdırılmışdır.[6]

E.X. Nəsirov tərəfindən yazılan “Tarix yazan və tarixə yazılan Lider” adlı genişhəcmli məqalədə Qarabağda erməni seperatizminin başlanması, İkinci Qarabağ müharibəsindəki qalibiyyətin əldə olunması istiqamətində müharibəyədək görülmüş işlər və qələbənin postmüharibə dövründə Azərbaycan Respublikasının dövlətlərlə olan münasibətlərə təsirləri təhlil olunmuşdur.[7]

N.A. Əliyev “Vətən müharibəsində Azərbaycanın qələbəsi” adlı kitabında gesosiyasi aspektdən Birinci Qarabağ müharibəsinin təhlili aparılmış, eyni zamanda İkinci Qarabağ müharibəsinin nəticələri kontekstində regionda dəyişən geosiyasi konfiqurasiyanın Azərbaycan Respublikasının xarici siyasətinə olan təsirləri araşdırılmışdır. [8]

A.A. Aslanlı “Vətən Müharibəsi Tarixi. Şəxsiyyət Faktoru” kitabında yer alan “Azərbaycanın İkinci Qarabağ Müharibəsində Qələbəsi və Qafqazda Yeni Geopolitik Vəziyyət” adlı yarımbaşlıqda üçtərəfli bəyanatın imzalanmasından sonra regiondakı dəyişikliklər, Azərbaycan – Türkiyə münasibətlərinin yeni mərhlədə inkişafına İkinci Qarabağ müharibəsindən sonrakı geosiyasi vəziyyətin təsiri və xüsusilə Şuşa Bəyannaməsinin tərəflər üçün əhəmiyyəti təhlil olunmuşdur.[9]

---

[6] Sevdamalıyev, R.M. və Sevdamalıyev, E.R. İkinci Qarabağ müharibəsi və yeni geosiyasi reallıqlar / R.M. Sevdamalıyev., E.R. Sevdamalıyev. – Bakı: AFPoliqraf, - 2023.- 320 s.

[7] Nəsirov, E.X. Tarix yazan və tarixə yazılan Lider [Elektron resurs] / Yeni Azərbaycan Partiyasının rəsmi internet saytı, Oktyabr 15, 2023. URL: http://www.yap.org.az/az/view/news/78055/tarix-yazan-ve-tarixe-yazilan-lider-

[8] Əliyev, N.A. Vətən müharibəsində Azərbaycanın qələbəsi / N.A. Əliyev. – Bakı: AFPoligraf,- 2021. - 1096 s.

[9] Aslanlı A.A. “Vətən Müharibəsi Tarixi. Şəxsiyyət Faktoru” kitabında yer alan “Azərbaycanın İkinci Qarabağ Müharibəsində Qələbəsi və Qafqazda Yeni Geopolitik Vəziyyət”/ A.A. Aslanlı. – Bakı: Şərq-Qərb, - 2021. - 444 s.

Tədqiqat işində yerli alimlərlə yanaşı mövzu ilə bağlı türk alimlərinin araşdırmalarından da istifadə olunmuşdur.

A.A.Yücel, "Ermenistan'ın Askeri Faaliyetleri ve Nitelikleri" adlı kitabında İkinci Qarabağ müharibəsinin təhlili aparılmış, eyni zamanda müharibənin çıxılmaz vəziyyətdən həllə doğru olan proseslər və yekun nəticələr araşdırılmışdır. [10]

A.A. Ali. və G.Z. Özpınar "Azerbaycan'ı Zafere Götüren Büyük Taarruz: 44 Günlük Savaşın Anatomisi" adlı məqaləsində 44 Günlük Vətən müharibəsinin gedişatı və Azərbaycanı zəfərə aparan faktorlar təhlil olunur.[11]

A.A Keskin "Zengezur Koridoru ve Kafkasya'daki Jeopolitik Rekabetin Dönüşümü" adlı kitabında Qafqazda geosiyasi rəqabətin transformasiyası araşdırılır və Zəngəzur dəhlizi məsələsi təhlil olunur.[12]

K.E. Hülya "44 Günde Gelen Zaferin Birinci Yıl Dönümünde Masada Güçlü Azerbaycan: 2021" adlı məqaləsində 44 günlük Zəfər müharibəsinin yekun nəticələri və Azərbaycanın qazandığı qələbənin birinci ildönümü təhlil olunur[13]

Türk alimləri ilə yanaşı tədqiqat işində ingilis və rus alimlərdən istinadlar verilib.

D.A. Baldwin (ed.). «Neorealism and Neoliberalism: The Contem- porar" adlı kitabda neoliberal institusionalizm və neorealizm arasında mübahisə yeni aktuallıq kəsb etdi. Neorealizm və neoliberalizm münaqişə və əməkdaşlıq məsələlərinə, onların Soyuq

---

[10] Yücel A.A. Ermenistan'ın Askeri Faaliyetleri ve Nitelikleri, İçinde: Çıkmazdan Çözüme Karabağ Sorunu, / Ed. Muhittin Ataman, Ferhat Pirinççi. – İstanbul: SETA Yayınevi, - 2021., -ss. 271-29.

[11] Ali A.A, Özpınar G.Z., Azerbaycan'ı Zafere Götüren Büyük Taarruz: 44 Günlük Savaşın Anatomisi // Avrasya İncelemeleri Dergisi, Cilt/Volume:10, Sayı/İssue: 1, Yıl/Year: 2021, ss 83-106.

[12] Keskin, A.A. Zengezur Koridoru ve Kafkasya'daki Jeopolitik Rekabetin Dönüşümü / A.A. Keskin. – Ankara: - 2021.- 134 s.

[13] Hülya K.E. 44 Günde Gelen Zaferin Birinci Yıl Dönümünde Masada Güçlü Azerbaycan: 2021. / K.E. Hülya - Ed: Özgür Tüfekçi ve Fevzi Kırbaşoğlu, Karadeniz: 2021 Gelişmeleri Işığında Bölgesel Değerlendirmeler içinde -2022. -. 53-74 səh

Müharibədən sonrakı beynəlxalq münasibətlərə təsirləri üzərində cəmləşir.[14]

R.E. Powel “Anarchy in International Relations Theory: the Neorealist- Neoliberal Debate // International Organization” adlı kitabında beynəlxalq münasibətlər nəzəriyyəsinə ən təsirli müasir yanaşmalardan ikisi neorealizm və neoliberalizm haqqında araşdırmalar verilir. Beynəlxalq münasibətlər nəzəriyyəsinin bəzi aspektləri haqqında təhlillər olunur.

P.E. Schoeder “Historical Reality vs. Neo-realist Theory. // International Security”[15]adlı məqalə müasir siyasət məsələlərini əhatə edir və onların arxasında duran tarixi və nəzəri sualları araşdırır.

K.M. Waltz “Evaluating Theories”[16] adlı məqalə beynəlxalq münasibətləri araşdırır və belə nəticəyə gəlir ki, neorealizm “müasir Avropa dövlətləri sisteminin ümumi fəaliyyəti və dinamikası” üçün adekvat izahat bazası vermir. Buna görə də o, tarixçilərə “neorealist paradiqmanı qəbul etməməyi”, beynəlxalq münasibətlər nəzəriyyəçilərinə isə “beynəlxalq tarixin faktlarının bunu dəstəklədiyini güman etməməyi” tövsiyə edir.

Tədqiqat işinin mühüm mənbə bazasını dövlət başçılarının, xarici işlər nazirlərinin qarşılıqlı səfərləri zamanı verdikləri bəyanatlar, məruzə və çıxışlar təşkil edir. Bu cəhətdən dissertasiyanın yazılmasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitq, məruzə və çıxışlarına dair rəsmi materiallar xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, araşdırılan problemlə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari proseslərlə bağlı verdiyi bəyanatlar da ilkin mənbə kimi geniş istifadə olunmuşdur. Dissertasiyanın yazılması prosesində Azərbaycanda və xaricdə nəşr olunan dövrü mətbuat materiallarından da geniş istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini İkinci Qarabağ müharibəsinin nəticələri kontekstində Azərbaycan

---

[14] Baldwin D.A. (ed.). “Neorealism and Neoliberalism: The Contem- porary” / D.A.Baldwin - 1996.-43 p

[15] Schoeder P.E. “Historical Reality vs. Neo-realist Theory. // International Security”/ P.E. Schoeder- vol 19 no.1 (Summer)- 1994.-12 p

[16] Waltz K.M “Evaluating Theories. //American Political Science Review”/ K.M Waltz -vol.91 no.4 (December)- 1997.-24-28 p

Respublikasının qurudan qonşu olduğu ölkələrlə olan münasibətləri, predmetini isə müharibədən sonra əldə olunmuş nəticələr əsasında qonşu dövlətlərlə olan əlaqələrdəki dəyişmələrin (güclənən əməkdaşlıqların və ziddiyyətlərin) elmi siyasi cəhətdən araşdırılması təşkil edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri**. Tədqiqat işinin məqsəd və vəzifələri mövzunun aktuallığı və əhəmiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmişdir.Tədqiqat işinin əsas məqsədi cari sənədlər, dövlət başçıları tərəfindən verilən bəyanatlar, müraciət və çıxışlar, habelə mövcud ədəbiyyat əsasında İkinci Qarabağ müharibəsinin səbəb və nəticələrinə müvafiq olaraq, postmünaqişə dövründə Cənubi Qafqaz regionununda sülhün təmin olunması istiqamətində görülən işlərin və Azərbaycan Respublikasının yeni geosiyasi reallıqlar çərçivəsində regional dövlətlərlə olan qarşılıqlı əlaqələrinin sistemli şəkildə siyasi təhlilinin aparılmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- İkinci Qarabağ müharibəsinin səbəblərinin, tarixi zəruriyyətinin, habelə həm Azərbaycan, həm də Ermənistan üçün olan yekun nəticələrinin təhlil olunması;
- Müharibənin başlanması və gedişatında Azərbaycana qonşu dövlətlərin müharibə ilə bağlı münasibətlərinin tədqiq olunması;
- Müharibə dövründə Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan dezinformasiya siyasəti ilə mübarizə mexanizminin təhlil olunması;
- Regionda uzunmüddətli sülhün təmin olunması istiqamətində İkinci Qarabağ müharibəsindən sonrakı dövr üçün formalaşmış yeni çağırışların araşdırılması;
- İkinci Qarabağ müharibəsinin yekun hərbi-siyasi nəticələrinin regiondakı geosiyasi vəziyyət təsirinin təhlil olunması;
- Müharibədən sonrakı dövrdə Azərbaycanla və Ermənistan arasında sülh müqaviləsinin bağlanması istiqamətində aparılan ümumi siyasi prosesin tərəflərin irəli sürdüyü şərtlər aspektindən tədqiq olunması;
- Postmünaqişə dövründən Ermənistan rəhbərliyi tərəfindən atılan addımların sülh quruculuğuna törətdiyi maneələrin təhlili;

- İkinci Qarabağ müharibəsinin nəticələri kontekstində Azərbaycan Respublikasının qonşu dövlətlərlə (qurudan həmsərhəd qonşu dövlətlər prinsipi ilə) olan münasibətlərinin araşdırılması;
- Yeni geosiyasi reallıqlar nəzərə alınmaqla qonşu dövlətlərlə olan münasibətlərin müharibədən əvvəlki vəziyyətinin, postmüharibə dövrü ilə müqayisəli təhlil olunması;
- Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunması nəticəsində Cənubi Qafqaz regionunda yaranmış geosiyasi vəziyyətin təhlil olunması.

**Tədqiqat metodları.** Tədqiqatın müxtəlif mərhələlərində dissertasiya işində bu məqsəd və vəzifələrə nail olmaq, əldə edilən nəticələrin etibarlılığını təmin etmək üçün iqtisadi-statistik, sənədlərin öyrənilməsi, müqayisəli-analitik metodlar, kontent analiz, sistemli yanaşma, statistik təhlili metodlarında istifadə edilmişdir. Problemin əhatə etdiyi dövr bir çox sənədlərlə zəngin olduğundan işin yazılması prosesində müqayisəli siyasi təhlilə geniş yer verilmiş, bu metodların xronoloji və problem-xronoloji üsullarından daha çox istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Ermənistan tərəfindən keçmiş Dağlıq Qarabağın və ətraf ərazilərin işğal altında saxlanması Cənubi Qafqaz regionunda uzunmüddətli sülhün təmin olunmasına maneə törədirdi.
- Postmüharibə dövründə Azərbaycan-Ermənistan münasibətlərin normalaşdırılması və sülh müqaviləsinin bağlanması istiqamətində atılan siyasi-diplomatik addımlara əsas əngəl Ermənistan (hökuməti, Qriqoryan kilsəsi və diasporası) tərəfindən törədilmiş təxribatlardır.
- Müharibənin nəticələri konteksində Azərbaycan Respublikasının qurudan qonşu dövlətlərlə olan münasibətləri ziddiyyətlər və fikir ayrılıqlarına baxmayaraq, yeni inkişaf mərhələsinə keçmişdir.
- Region ölkələri ilə münasibətlər (Azərbaycan-Türkiyə, Azərbaycan-Rusiya, Azərbaycan-İran, Azərbaycan-Ermənistan və Azərbaycan-Gürcüstan) postmüharibə dövr geosiyasi reallıqlara uyğunlaşma mərhələsi bitirmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiq olunan mövzu aktual olduğuna və siyasi əhəmiyyət kəsb etdiyinə görə o, ilk dəfə olaraq kompleks şəkildə sistemli araşdırılır və dissertasiyanın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətindəki siyasi-diplomatik əlaqələr təhlil edilərək, cari dövrdə əldə olunan irəliləyişlər qeyd olunaraq, Ermənistanın hazırki dövlət quruluşunun formalaşmasının hüquqi əsasını təşkil edən rəsmi sənədlərin, milli simvolikaların, habelə hazırda da mövcud olan şovinist ekstrimal qrupların fəaliyyətinin yekun sülh müqaviləsinin imzalanmasına əsas təhdid olması qənaətinə gəlinir;
- Azərbaycan Respublikasının premüharibə, müharibə və postmüharibə dövr region dövlətləri ilə olan ikitərəfli, habelə çoxtərəfli münasibətləri kompleks şəkildə dəyişən geosiyasi konfiqurasiyaya uyğun olaraq, müqayisələr əsasında təhlil edilmişdir;
- Qərb və Türk sivilizasiyaları arasındakı münasibətlərdə məhz birinci yerdə milli (dünyavi və dövlətçilik) daha sonra dini faktor dayanır. Bu prizmadan məsələyə yanaşılaraq, Qərb dövlətlərinin istər qlobal səviyyədə diqqət çəkən erməni məsələsində, istərsə də İkinci Qarabağ müharibəsindən sonrakı diplomatik vasitəçilik fəaliyyətində tutduğu ikili mövqe Qərb ilə Türk sivilizasiyaları arasındakı toqquşmadan qaynaqlanması qənaətinə gəlinir;
- Azərbaycan və Ermənistan arasında sülhün təmin olunmasının qısamüddətli və uzunmüddətli perspektivdə həm ikitərəfli, həm də region dövlətləri nəzərə alınmaqla çoxtərəfli aspektdən mövcud ola biləcək faydaları, habelə nəqliyyat kommunikasiya xəttlərinin açılması nəticəsində formalaşması mümkün olan əlverişli geoiqtisadi mühitin proqnoz təhlili aparılmışdır.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Bu tədqiqat işinin materiallarından Azərbaycanda beynəlxalq münasibətlər və xarici siyasət problemlərinə dair dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların həmçinin, konfliktologiya fənlərinə dair ümumiləşdirilmiş elmi əsərlərin yazılmasında istifadə etmək mümkündür. Dissertasiyada söylənilən elmi mülahizə və fikirlər, aparılan araşdırmaların nəticələri bu mövzu ilə əlaqədar gələcəkdə daha yeni tədqiqat işlərinin istiqamətlərinin müəyyənləşdirilməsində,

eləcə də, praktik xarici siyasət problemləri ilə məşğul olan idarələrdə və bu sahədə çalışan mütəxəssislər üçün faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi**. Tədqiqat işinin məzmunu, əsas müddəaları, əldə olunan nəticələri müəllifin ölkə daxilində və xaricində elmi nəşrlərdə çap edilən məqalələrində, iştirak və çıxış etdiyi respublika və beynəlxalq səviyyəli elmi konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında tamamlanmışdır.

**Dissertasiyanın strukturu.** Tədqiqat işinin strukturu mövzunun xarakterinə uyğun olaraq müəyyənləşdirilmişdir.
Dissertasiya işinin titul səhifəsi (420 işarə), mündəricat (2.181 işarə), giriş (18.538 işarə), I Fəsil – (69.654 işarə), II Fəsil – (58.625 işarə), III Fəsil – (81.668 işarə), nəticə (7.952 işarə) təşkil edir. Dissertasiya işinin ümumi həcmi mətni kompüterdə yazılmış 170 səhifə, əlavələr və ədəbiyyat siyahısı istisna edilməklə 236.437 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın metodları müəyyənləşdirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti şərh edilmiş, tədqiqat işinin aprobasiyası və dissertasiyanın strukturu qeyd edilmişdir.

Dissertasiyanın ilk fəsli **"II Qarabağ müharibəsi: hərbi və siyasi nəticələri"** adlanır və üç yarımfəsildən ibarətdir. Bu fəsildə region dövlətləri ilə münasibətlərin nəzəri əsasları öyrənilmiş, Vətən müharibəsinin başlanmasını şərtləndirən amillər və onun yekunu təhlil olunmuşdur. Siyasi-diplomatik və informasiya cəbhəsində mübarizə və onun tətbiqi mexanizmləri əsas amil kimi müəyyənləşdirilmişdir.

Birinci fəslin **"Müasir beynəlxalq münasibətlərdə region dövlətləri ilə münasibətlərin nəzəri əsasları"** adlı yarımfəslində beynəlxalq münasibətlərin xarakterik xüsusiyyətləri qeyd olunur.

Qeyd olunan xarakterik xüsusiyyətlər onu göstərir ki, beynəlxalq münasibətləri tədqiq etmək, ümumiləşdirmələr aparmaq, konkret elmi nəticələr çıxarmaq, onun daxili qanunauyğunluqlarından çıxış edərək elmi, praktiki tövsiyələr vermək çox çətindir.

Beynəlxalq münasibətlər elminin əsas tərkib hissələri – beynəlxalq münasibətlər nəzəriyyəsindən; beynəlxalq münasibətlər sisteminin formalaşması, inkişafı və diplomatiya tarixindən; beynəlxalq münasibətlər sistemi və dövlətlərarası əlaqələrin sosioloji tədqiqatından; geosiyasətdən; beynəlxalq münasibətlər və müasir dünya siyasətindən ibarətdir.

Bu bölmədə beynəlxalq münasibətlərin nəzəriyyə məktəblərinin təhlili çərçivəsində, İkinci Qarabağ müharibəsinin və region dövlətləri ilə münasibətlərin nəzəri aspektləri təhlil olunur. Beynəlxalq münasibətlər nəzəriyyəsi də digər sosial elmlər kimi, ümumiləşmələr vasitəsilə beynəlxalq aləmdə baş verən hadisələrə şərh vermək cəhdidir.

Bəzi tədqiqatçılar hesab edirlər ki, beynəlxalq münasibətlər nəzəriyyəsində əsas ayırıcı xətt bu və ya digər tədqiqatçılar tərəfindən istifadə olunan metoddur və bu nöqteyi-nəzərdən də onlar beynəlxalq münasibətlərin təhlili üzrə “klassik” və “elmi” metod nümayəndələri arasındakı mübahisəyə əsas diqqət verirlər.[17]

Nəhayət, başqa qrup tədqiqatçılar beynəlxalq münasibətlərdə kompleks meyarlara əsaslanaraq (Kanada alimi Baqat Korani), beynəlxalq münasibətlər nəzəriyyələrinin tipologiyasını həm özünün istifadə etdiyi metodlar (“klassik” və “modernist”), həm də dünyada konseptual baxışları ilə seçilən (“liberal-plüralist” və “materialist-strukturalist”) metodlar üzərində qururlar. Nəticədə siyasi realizm (Q. Morqentau, R. Aron, X. Bal), bixeviorizm (D. Sinqer, M. Kaplan), klassik marksizm (K. Marks, F. Engels, V. Lenin), neomarksizm və ya “asılılıq” məktəbi (İ. Vallerstayn, S. Amin, A. Frank, F. Kardoza) kimi istiqamətləri ayırırlar. Bölmə göstərilən bu nəzəriyyələr əsasında təhlil olunur.

---

[17] Nəcəfov E.Ə. “Beynəlxalq siyasətə dair realist- idealist, elmi (bixe- viorist) – ənənəvi (tradisional) yanaşmalar. // Beynəlxalq münasibətlərin aktual problemləri”/ E.Ə. Nəcəfov.- 2005. -№ 4.

Birinci fəslin **“İkinci Qarabağ müharibəsinin başlanmasını şərtləndirən amillər, onun gedişatı və yekunu”** adlanan yarımfəslində qeyd edilir ki, 1980-ci illərin ortalarında SSRİ-də “yenidənqurma” və “aşkarlıq” siyasətinin başlanması ermənilər tərəfindən bir fürsət kimi qiymətləndirildi. Bu konteksdə Ermənistan tərəfindən saxta və əsassız iddialar yenidən gündəmə gətirilərək keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (bundan sonra DQMV) Ermənistana birləşdirilməsi istəyi elan edildi. Bu istəyin reallaşdırılması məqsədilə 1980-ci illərin sonlarından etibarən Ermənistanın dəstəyi ilə keçmiş DQMV-də “miatsum” (ermənicə birləşmə deməkdir) ideologiyası əsasında hərəkat başladıldı.[18]

Minsk qrupunun vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında danışıqlar prosesi atəşkəs razılaşmasından sonra başladı. Danışıqlar prosesi çərçivəsində Qarabağın erməni işğalından azad Ermənistan uzun müddət sözdə vasitəçilik missiyası ilə çıxış edən dövlətlərin ona etdiyi sülh təkliflərini üstüörtülü və ya açıq şəkildə rədd edərək münaqişənin dondurulmasına çalışırdı. Qarabağ münaqişəsindəki status-kvonun başa çatmasında üç dönüş nöqtəsi oldu. Bunlardan birincisi 2-5 aprel 2016-cı il tarixlərində baş vermiş Aprel döyüşləri və ya “dörd günlük müharibə”, ikincisi 12-18 iyul 2020-ci il tarixlərində baş vermiş Tovuz döyüşləri, üçüncüsü isə 27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ müharibəsidir.[19]

Birinci fəslin **“Siyasi-diplomatik və informasiya cəbhəsində mübarizə və onun tətbiqi mexanizmləri”** adlanan yarımfəslində qeyd olunur ki, İkinci Qarabağ müharibəsində Ermənistanla mübarizə yalnız hərbi üsulla-döyüş meydanında aparılmırdı. Müharibə informasiya cəbhəsində də davam edirdi. Beləki, Azərbaycan ordusunun uğurlu hərbi əməliyyatlarına qarşı gələ bilməyən Ermənistan tərəfindən dezinformasiyalar demək olar ki, hər gün yayılırdı. Ermənistan keçmişdə olduğu kimi beynəlxalq ictimaiyyətə

---

[18] Nəsirov, E.X. Tarix yazan və tarixə yazılan Lider [Elektron resurs] / Yeni Azərbaycan Partiyasının rəsmi internet saytı, Oktyabr 15, 2023. URL: http://www.yap.org.az/az/view/news/78055/tarix-yazan-ve-tarixe-yazilan-lider-

[19] Qarabağın geosiyasi taleyi: İyul zəfərinin diplomatik atributları: [Elektron resurs] / URL: https://stm.az/ru/news/225/qarabagin-geosiyasi-taleyi-iyul-zeferinin-diplomatik-atributlari

təsir etmək və öz iddiaları ilə dünyanın ictimai rəyinin Azərbaycana qarşı çevrilməsi məqsədilə siyasi, hüquqi və dini təcrübələrdən istifadə edərək strategiyalar həyata keçirdi. Ermənistan dezinformasiya və təbliğat kimi psixoloji müharibə üsullarını da tətbiq edirdi. Ermənistan müharibənin əvvəlɘrindən etibarən cəbhədəki məğlubiyyətlərini bir sıra əsassız iddalar səsləndirməklə ört-basdır etməyə çalışırdı.[20]

Prezident İlham Əliyev dəfələrlə Ermənistan hərbi-siyasi rəhbərliyini təxribatlara son qoymağa çağırsa da son nəticədə Ermənistan öz işğalçı siyasətini davam etdirməyə cəhd göstərirdi. Bunun da əsas səbəblərindən biri kimi rəhbərliyinin öz daxili auditoriyasında nüfuzunu yüksəltmək  və uzun illər "məğlubedilməz" mifinin eyforiyası altında davamlı təxribatlara cəhd edən Ermənistan ordusunun "güc"nü nümayiş etdirmək idi.[21]

Dissertasiyanın ikinci fəsli **"Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesi və onun xarakteristikası"** adlanır və dörd yarımfəsildən ibarətdir. Bu fəsildə hər iki ölkə arasında münasibətlərin normallaşdırılması barədə atılan addımlar və onun xarakteristikası müzakirə olunur.

İkinci fəslin **"10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat: icra prosesi və problemlər"** adlanan yarımfəslində İkinci Qarabağ müharibəsini sonlandıran üçtərəfli bəyanatın təhlili aparılır.[22]

Bəyanatın ilk bəndinin yəni atəşkəsin icrası ilə bağlı ölkə başçısı xalqa müraciəti zamanı bildirmişdir ki, Ermənistan xüsusilə diqqətli olmalı və atəşkəsi təmin etməlidir. Artıq Ali Baş Komandan tərəfindən bəyanatdan dərhal sonra ordunun fəaliyyəti və atəşkəs rejimi ilə bağlı müvafiq tapşırıqlar verilmişdi. Üçtərəfli bəyanat Azərbaycanın həm hərbi, həm də diplomatik uğuru idi. Azərbaycan 44 gün ərzində işğaldan azad etdiyi bütün əraziləri özündə saxlamaqla, Ermənistanı

---

[20] Müharibə dövrünün erməni yalanları – Təhlili: [Elektron resurs] / URL: https://oxu.az/politics/427570

[21] İlham Əliyev xalqa müraciət edib: [Elektron resurs]  / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, - Sentyabr 27, 2020 URL: https://president.az/az/articles/view/40968

[22] Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikasının Baş Nazirinin və Rusiya Federasiyası Prezidentinin Bəyannaməsi: [Elektron resurs]  / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, - Noyabr 10, 2020,. URL: https://president.az/articles/45924

digər 3 böyük şəhər/rayonu, yəni Kəlbəcər, Ağdam və Laçını döyüşsüz təslim etməyə məcbur edirdi. Digər yandan Ermənistan Baş nazirinin 2019-cu ildən etibarən iddia qaldırdığı Qarabağın statusu və muxtariyyəti barəsində heç bir bənd burda yox idi. Əslində 10 noyabr bəyanatı Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasını bir daha təsdiq edir, Ermənistan silahlı qüvvələrinə məxsus qoşunların Rusiya Sülhməramlılarının müvəqqəti məsuliyyət zonasından da çıxarılmasını tələb və öhdəlik kimi ortaya qoyurdu.

İkinci fəslin **"İkitərəfli münasibətlərin normalaşdırılması istiqamətində siyasi-diplomatik addımlar və yeni vasitəçilik formatları"** adlı yarımfəslində Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması üzrə siyasi-diplomatik addımlar təhlil olunub. Qarabağ münaqişəsi anlayışının birmənalı şəkildə aradan qaldırılmasına baxmayaraq, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalanmamış və sərhədlərin müəyyləşdirilməmişdir. Müharibə sonrasında Azərbaycan və Ermənistan arasında olan diplomatik təmasların da əsasını məhz bu 2 mövzu təşkil edir:

1) İki ölkə arasında sərhədlərin demarkasiya və delimitasiya olunması,

2)Yekun sülh sazişinin imzalanması.

Bu iki məsələnin həlli yalnız Azərbaycan Ermənistan arasında sülhü təmin etmir, eyni zamanda Cənubi Qafqaz regionunda uzunmüddətli sülh və sabitliyin əldə olunmasında müstəna rol oynayır. İki ölkə arasında siyasi-diplomatik addımların atılmasında əsas 2 vasitəçi vardır. Bunlarda birincisi, İkinci Qarabağ müharibəsinin sonlandırılmasında da vasitəçilik edən Rusiyadır. Digəri isə regiondan kənarda olmasına baxmayaraq, daima Cənubi Qafqazda gedən prosesləri yaxından izləmiş Avropa İttifaqıdır. Eyni zamanda ABŞ və Gürcüstan da vasitəçilik səylərini irəli sürmüşdür.

Prezident İlham Əliyev siyasi müstəvidə dəfələrlə bəyan edib ki, Azərbaycan Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyasına və sülh sazişinin imzalanmasına hazırdır. 2022-ci il

fevralında Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılmasına dair 5 prinsipi irəli sürdü.[23]

İrəli sürülən 5 prinsip sonrakı dövrdə Azərbaycanla Ermənistan arasında keçiriləcək olan diplomatik təmaslar, o cümlədən görüşlərin əsasını təşkil edirdi. Prinsiplərdən bir daha aydın olurdu ki, Azərbaycan beynəlxalq hüquqa, dövlətlərinin suverenliyinə sadiqdir və bu konteksdə irəli sürülən prinsiplərin heç biri beynəxalq quruluşların müvafiq normativ aktlarına zidd deyildir.

İkinci fəslin **"Ermənistanın hərbi təxribatları sülh prosesinə əsas maneə kimi"** yarımfəslində qeyd edilir ki, Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının aparılmasına baxmayaraq, Ermənistan tərəfindən hərbi təxribat və terrorçuluq davam edirdi. 2020-ci il noyabrın 10-da imzalanan bəyannamədən sonra Ermənistan silahlı qüvvələri bölgəni tərk etmək yerinə, əksinə, döyüş mövqeləri yaradaraq, bölgədə Azərbaycanın mülki əhalisinə və əsgərlərinə qarşı terror və təxribatlar törətdilər.

Yarımfəsildə təhlil olunan proseslər bir daha İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə belə Azərbaycanın sülhün təmin olunmasında və regionda davamlı əməkdaşlıq platformasının qurulmasında maraqlı olduğunu sübut etmiş olur. Azərbaycan tərəfindən 2023-cü ilin 19 sentyabr tarixində keçirilən anti-trerror tədbirləri nəticəsində Ermənistan danışıqlardakı son əsassız "arqument"-ni – Qarabağın erməni əhalisi ilə bağlı məsələlərin həll olunmasını itirmiş oldu. Beynəlxalq hüququn suverenlik prinsipini rəhbər alaraq demək olar ki, "Qarabağ məsələsi" və ya "Qarbağın erməni əhalisi" məsələsi terminləri artıq yoxdur. Bununla belə davam edən hərbi təxribatlar Ermənistanın sülhün əldə olunması üçün olan real imkanları dəyərləndirmək istəmədiyini, əksinə yeni havadarlarına inanaraq yeni təxribatlar törətməklə sülhə mane olmasını göstərir.

İkinci fəslin **"Azərbaycan və Ermənistan arasında sülhün əldə olunmasının gələcək perspektivləri"** yarımfəslində iki ölkə arasındakı münasibətlərin gələcək perspektivləri təhlil olunur. Ermənistanın SSRİ-dən ayrılarkən formalaşdırdığı hüquqi bazanın ikitərəfli münasibətlərin formalaşmasına, sülh müqaviləsinin

[23] Tarixi Zəfərin simvolları: [Elektron resurs] / URL: https://mediatv.az/siyaset/113213-tarixi-zeferin-simvollari.html

imzalanmasına olan təhdidi aydınlaşdırılır. Eyni zamanda Zəngəzur dəhlizinin reallaşması nəticəsində region dövlətlərinin xüsusilə, Azərbaycan və Ermənistanın əldə edəcəyi qazancın beynəlxalq ticarət dəhlizləri çərçivəsindəki rolu tədqiq edilir. Yarımbaşlıqda bütün nüanslar ümumiləşdirilir, Azərbaycan və Ermənistan arasındakı münasibətlərin gələcək dinamikasının formalaşmasındakı çağırışlar və addımlar təhlil olunur.

Üçüncü fəsil **“Postmüharibə dövrü: region ölkələri ilə münasibətlər yeni geosiyasi reallıqlarda”** adlanır və dörd yarımfəsildən ibarətdir. Bu fəsildə Azərbaycanın region ölkələri ilə İkinci Qarabağ müharibəsindən əvvəl və sonrakı dövrlər ərzində münasibətləri əks olunmuşdur.

Üçüncü fəslin **“Azərbaycan-Türkiyə münasibətləri: strateji və hərbi müttəfiqlik”** adlanan yarımfəslində göstərilir ki, müstəqil Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında diplomatik münasibətlər Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən dərhal sonra başladı. Son 30 il ərzində iki ölkə arasındakı münasibətlər iqtisadi, siyasi, sosial, mədəni, hərbi və ideoloji cəhətdən kifayət qədər yüksək səviyyə gəlib çatmışdır. İkinci Qarabağ müharibəsindən öncəki dövrə nəzər saldıqda iki ölkə arasındakı münasibətlərin beynəlxalq əhəmiyyətli layihələrlə möhkəmləndiyini və son nəticədə institutsionallaşdığını görmək mümkünür. İcra olunan birgə layihələr, xalqların bir-biri ilə tarixi dostluğu Azərbaycan-Türkiyə münasibətlərini strateji tərəfdaşlıq və müttəfiqlik formatına gətirmişdir. Müharibədən sonra imzalanmış Şuşa bəyannaməsi Azərbaycan və Türkiyə müttəfiqliyinin yeni mərhələsi hesab olunur. İlk dəfə tərəflərin müttəfiq olaraq, göstərildiyi bu bəyannamə geosiyasi konfiqurasiyanın Azərbaycan və Türkiyə arasındakı münasibətlərə olan müsbət təsirindən xəbər verir.

Eyni zamanda, müharibə boyu Türkiyənin verdiyi siyasi və diplomatik dəstəkdən əlavə, Türkiyə vətəndaşları tərəfindən də Azərbaycana böyük sosial dəstək verildi. Türk xalqı evlərində, iş yerlərində Azərbaycan bayrağını asmaqla azərbaycanlı qardaşlarının yanında olduğunu göstərdi. Ermənistanın hücumlarını pisləmək üçün mitinqlər keçirdi. Göstərilən qeyd-şərtsiz dəstək bir daha göstərdi ki, Türkiyə Azərbaycanın beynəlxalq aləmdə əsl müttəfiqidir. Türkiyə

Azərbaycana açıq dəstəyi ilə Cənubi Qafqazda sülhün qurulmasında mühüm aktor olduğunu nümayiş etdirdi.[24]

Üçüncü fəslin **"Azərbaycan-Rusiya münasibətləri yeni mərhələdə: inkişaf və problemlər"** yarımfəslində qeyd edilir ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında İkinci Qarabağ müharibəsinədək də kifayət qədər geniş və çoxşaxəli qarşılıqlı əlaqələr mövcud idi. 2018-ci ildə 2024-cü ilədək olan dövr üçün Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətləri üzrə plan imzalandı. Bu proqram sənədi özündə 5 "yol xəritəsi"ni ehtiva edirdi.[25]

Postmüharibə dövründə Rusiya Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması, sərhədlərin müəyyənləşdirilməsi üçün vasitəçilik missiyasını yerinə yetirməyə başladı. 2022-ci ildə Azərbaycan və Rusiya arasında "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalandı. Ümumilikdə 43 bənddən ibarət olan bəyannamə Azərbaycan və Rusiya arasında demək olarki, bütün sahələrdə qarşılıqlı əməkdaşlıq, strateji müttəfiqliyi ifadə edir. Bəyannamənin 6-cı bəndində qeyd edilir ki, "Rusiya Federasiyası və Azərbaycan Respublikası Tərəflərdən birinin fikrincə sülhə təhlükə yarada bilən, sülhü pozan və ya Tərəflərdən birinin təhlükəsizlik maraqlarına təsir edən vəziyyət yarandığı, eləcə də bu cür vəziyyətin yaranması təhdidi olduğu təqdirdə onun nizamlanması məqsədilə təxirəsalınmaz məsləhətləşmələrin aparılmasına hazırlıqlarını ifadə edirlər".[26]

---

[24] Azərbaycan Türkiyəyə nə qədər yardım edib?: [Elektron resurs] / URL: https://qafqazinfo.az/news/detail/azerbaycan-turkiyeye-ne-qeder-yardim-edib-umumi-mebleg-394729

[25]Soçidə Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş keçirilib: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, - Oktyabr 31, 2022. URL: https://president.az/az/articles/view/57741

[26] Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə: [Elektron resurs] / / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, - Fevral 22, 2022. URL: https://president.az/az/articles/view/55498

Göründüyü kimi müharibənin baş verməsi amili Azərbaycan-Rusiya münasibətlərində geriləməyə səbəb olmadı. Əksinə münasibətlər yeni geosiyasi vəziyyətə müvafiq olaraq yeni inkişaf mərhələsinə qədəm qoydu.

Üçüncü fəslin **"Azərbaycan-İran münasibətləri və onun mürəkkəb xarakteristikası"** yarımfəslində qeyd edilir ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında münasibətlərin qurulması və inkişafı olduqca mürəkkəb struktura malikdir. İki ölkə arasında olan münasibətlər İkinci Qarabağ müharibəsindən öncəki 28 illik bir dövr ərzində altı mərhələyə bölünür.[27] Azərbaycan-İran münasibətləri daima eyni xəttlə davam etməmişdir. 1991-2019-cu illər aralığında dəfələrlə Azərbaycan-İran münasibətləri kifayət qədər gərginləşmişdir.

İkinci Qarabağ Müharibəsinin həm başlanması, həm gedişatı, həm də yekun nəticələri Azərbaycan-İran münasibətlərinə ciddi şəkildə təsir etdi. Azərbaycanın 44 gün ərzində Qarabağı işğaldan azad etməsi regionun 30 il davam edən geosiyasi mənzərəsini dəyişdi. Müharibə gedişində İranla sərhəddə yerləşən ərazilərin işğaldan azad olunması Cənubi Azərbaycanda böyük coşqu ilə qarşılandı. Bu dövrdə İrandan Ermənistana silah daşınması prosesi davam edirdi. Bu hal cənubi azərbaycanlıların ciddi etirazına səbəb oldu. Nəticədə İranın Ermənistana silah daşıması üçün istifadə etdiyi əsas yollardan biri cənubi azərbaycanlılar tərəfindən bağlanıldı.[28]

İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə Azərbaycan və İran arasında ciddi siyasi-diplomatik gərginliklər müşahidə olundu. Müharibəsi nəticəsində Azərbaycanın tarixi qələbəsi İranın regionda olan geosiyasi maraqlarına uyğun gəlmirdi. Azərbaycan ilk növbədə Ermənistanın işğal etdiyi rayonları azad etməklə bütün İran sərhədinə nəzarəti bərpa etdi.[29] Xüsusilə, İran-Ermənistan münasibətlərin

---

[27] Агазаде М.М. "Азербайджано-иранские отношения: основные направления и особенности в 1991—2019 гг. (историографический обзор),/ М.М. Агазаде 2021.- 67 с

[28]İrandan Ermənistana silah daşıyan TIR-lar yandırıldı: [Elektron resurs] / URL: https://axar.az/news/gundem/502899.html

[29] Ahmet S., İran'ın Azerbaycan'a Yönelik Dış Politikası: İkinci Karabağ Savaşı'nın Belirleyiciliği // SDE Akademi Dergisi, Cilt/Volume: 2, Sayı/İssue: 4, Yıl/Year: 2022, ss. 12 – 43.

genişlənməsi, Azərbaycan Respublikasının İrandakı səfirliyinə silahlı hücumun baş tutması kimi hadisələr postmüharibə dövründə münasibətlərin gərginliyinin göstəriciləridir.

Üçüncü fəslin **"Azərbaycan-Gürcüstan münasibətləri: strateji tərəfdaşlıq və onun əsas xüsusiyyətləri"** adlanan yarımfəslində Azərbaycan və Gürcüstan münasibətlərinin İkinci Qarabağ müharibəsindən əvvəlki və müharibədən sonrakı dövrdə də kifayət qədər yüksək əməkdaşlıq və tərəfdaşlıq formatında olması məlum olur. İki ölkə arasındakı münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsində inkişafını, XX əsrin 90-cı illərində yaranmış geosiyasi vəziyyətin nəticəsi kimi də qiymətləndirmək mümkündür. Birinci Qarabağ müharibəsindən sonra işğal faktına son qoyulmadan Azərbaycan və Ermənistan arasında hər hansı formada əməkdaşlığın qurulmasının mümkünsüzlüyü, Azərbaycanın Avropaya çıxışında, habelə enerji diplomatiyasında etibarlı tərəfdaş olaraq Gürcüstanı görməsi ilə nəticələndi. İkinci Qarabağ müharibəsi dövründə Gürcüstanın öz hava sərhəddini hərbi təyinatlı yüklər üçün bağlaması da Azərbaycan-Gürcüstan münasibətlərinə təsirsiz ötüşmədi. Gürcüstan postmüharibə dövründə Azərbaycan və Ermənistan arasında bir sıra məsələlər üzrə razılaşmaların əldə olunmasında vasitəçi kimi də çıxış etdi.

Azərbaycan və Gürcüstan münasibətləri postmüharibə dövründə yeni mərhələdə və yeni əməkdaşlıq sazişləri ilə daha da genişləndi. Bu həm Azərbaycan, həm də Gürcüstan üçün kifayət qədər böyük gəlirli layihələrin gələcəkdə də birgə icra olunaması üçün mühüm əsasdır. Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı Mərkəzi Asiya və Qafqazın geosiyasi vəziyyəti, eyni zamanda qərbin Mərkəzi Asiyaya çıxışı aspektindən çox vacibdir. Bu xüsusda qeyd etmək lazımdır ki, Avropa və Asiyanı birləşdirən Şərq-Qərb kontinental ticarət yolu üçün getdikcə daha çox əhəmiyyət kəsb edir.[30] Gürcüstanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəkləməsi və Qarabağla bağlı məsələlərdə vermiş olduğu dəstək Azərbaycan-Gürcüstan münasibətləri üçün xüsusi əhəmiyyətli rol oynadı. Eynilə, Azərbaycan

---

[30]Baghirov, O. New Zangazur Corridor Will Unleash Regional Development Opportunities : [Elektron resurs] / URL: https://www.eurasiareview.com/17062021-new-zangazur-corridor-will-unleash-regional-development-opportunities-oped/

da həmişə olduğu kimi postmüharibə dövründə də Gürcüstanın Abxaziya və Cənubi Osetiya məsələlərindəki mövqeyini, ərazi bütövlüyünü dəstəklədi. Azərbaycanla Gürcüstan arasında uğurlu regional əməkdaşlıq münasibətləri çərçivədə irimiqyaslı qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırılması, habelə yaşıl enerji dəhlizinin formalaşması istiqamətində imzalanmış yeni sazişlər regional sülhə və sabitliyə xidmət edir.[31]

Tədqiqatın yekununda əldə olunan nəticələr, təklif və tövsiyələr dissertasiyanın **Nəticə** hissəsində aşağıdakı kimi əks olunmuşdur:

- Tədqiqat işinin nəticələrindən biri kimi qeyd etmək lazımdır ki, Ermənistanın Qarabağı işğalda saxlaması, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə qarşı aparmış olduğu təcavüzkar siyasəti Cənubi Qafqazda uzunmüddətli sülhün əldə olunmasına əsas əngəl olmuşdur. Elmi işdə Ermənistanın danışıqlar prosesini ləngitmək və status-kvonu saxlamaq üçün hərbi təxribatlara əl atması geniş şəkildə təhlil olunmuşdur.
- Tədqiqat işində postmüharibə dövrü region dövlətləri ilə olan münasibətlər çox geniş formada təhlil olunur. İkinci Qarabağ müharibəsi Qarabağdakı işğal faktına son qoymuşdur, lakin Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmaması reallığı hələ də qalmaqdadır. Beləliklə, tədqiqatın bir digər nəticəsi kimi Ermənistanın hərbi-siyasi təxribatları səbəbindən Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının gecikdirilməsi göstərilmişdir.
- İkinci Qarabağ müharibəsinin nəticələrinə müvafiq olaraq regionda yeni geosiyasi reallıqların formalaşması, Azərbaycan-Ermənistan münasibətləri ilə yanaşı Azərbaycan Respublikasının qurudan həmsərhəd oluğu region dövlətləri ilə münasibətlərinə yeniliklər gətirmiş oldu. Azərbaycan-Türkiyə münasibətləri yeni geosiyasi reallıqlar çərçivəsində strateji müttəfiqliyin yeni mərhələsinə keçid etdi. Şuşa Bəyannaməsi kimi tarixi sənədin

[31] Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerji sahəsində strateji tərəfdaşlığa dair Saziş imzalanıb: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, - Dekabr 17, 2022. URL:https://president.az/az/articles/view/58222

imzalanması iki ölkə arasındakı münasibətləri yeni mərhələyə aparmaqla yanaşı, postmüharibə dövr yeni reallıqların sənəd üzərində rəsmiləşdirilməsi kimi də qiymətləndirilə bilər.

- Azərbaycan-İran münasibətləri tarixi ziddiyyətlər yaşadı. Xüsusilə, İran-Ermənistan münasibətlərinin inkişafı, İranın dəyişən geosiyasi reallıqları qəbuletməməsi istəyi, Zəngəzur dəhlizinin formalaşdırılmasına qarşı tutmuş olduğu mövqe postmüharibə dövründə münasibətləri kifayət qədər gərginləşdirdi. Bununla belə, sonda İran xarici siyasəti də yeni reallıqlara uyğunlaşdı və 2023-cü ilin sonundan etibarən münasibətlərin yüksəlməsi müşahidə edildi.
- Bu dövrdə Azərbaycan-Gürcüstan münasibətləri daha da inkişaf etmiş iki ölkə arasında yaşıl enerji istiqamətində saziş əldə olunmuşdur. Gürcüstanın İkinci Qarabağ müharibəsi dövründə də öz bitərəfliyini qoruması, postmüharibədövründə Azərbaycan və Ermənistan arasındakı vasitəçilik missiyasında yaxından iştirakı iki ölkə arasındakı münasibətlərə müsbət təsir etdi.
- Azərbaycan-Rusiya münasibətləri də postmünaqişə dövr reallıqlarına transformasiya olundu. Azərbaycan və Rusiya arasında strateji əməkdaşlıq haqqında saziş imzalanmışdır. Eyni zamanda Qarabağdakı antiterror əməliyyatları nəticəsində Qarabağ bölgəsi ilə bağlı bütün məsələlərin müzakirə olunduğu bir tərəfin -Azərbaycan Respublikasının olması digər dövlətlər kimi Rusiya tərəfindən də qəbul edilmişdir. Beləliklə, region dövlətləri ilə olan münasibətlərin yeni geosiyasi reallıqlara transformasiya olunduğunu, bu münasibətlər çərçivəsində Azərbaycanın Cənubi Qafqazın lider dövləti olması reallığının digər qonşu ölkələr tərəfindən təsdiqləndiyini nəticə kimi qeyd etmək mümkündür.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqaz regionunda geosiyasi, geostrateji vəziyyət // Heydər Əliyevin Dövlətçilik İdeyaları və Vətən Müharibəsində Tarixi Qələbəmizi Şərtləndirən Əsas Amillər mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransı – Bakı: Dövlət İdarəçilik Akademiyası, 6 may 2022. – 2022. –s.167-175
2. The end of the 44-day war and the Armenia – Azerbaijan conflict. Politicus. Ministry of Education and Science of Ukraine South Ukrainian National Pedagogical University named after K. D. Ushinskyi. Ukraina, 2023, №4, p. 56-60
3. Azərbaycan və Ermənistanın yeni siyasi reallığa uyğunlaşması. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. c.71, Bakı, 2023, №3, s. 121-132
4. Zəngəzur dəhlizinin Azərbaycan Respublikası və Cənubi Qafqaz regionu üçün əhəmiyyəti. Dövlət İdarəçilik Akademiyası. Dövlət İdarəçiliyi və Nəzəriyyə. Elmi-nəzəri jurnal. Bakı, 2023, № 3, s. 209-221
5. Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiya və demarkasiyası problemi və onun həlli yolları. Geostrategiya. Elmi-nəzəri jurnal. Bakı, 2023, №6, s.41-46
6. Vətən Müharibəsindən sonra Azərbaycan Respublikasının suverenliyinin bərpası. Sivilizasiya. Elmi-nəzəri jurnal. Bakı Avrasiya Universiteti. c.12, Bakı, 2023, №5, s. 80-86
7. İkinci Qarabağ müharibəsinin Azərbaycan-Türkiyə münasibətlərinə təsirləri. Geostrategiya. Elmi-nəzəri jurnal. Bakı, 2024, №1, s.73-78
8. The last breaking point in the armenian issue: The Second Karabakh War. İnternaitonal Symposium on current developments in Science, Technology and Social Sciences. France-Paris, 24-26 october 2023, p. 372-373
9. İkinci Qarabağ müharibəsi: tarixi ədalət və zəruriyyət // Ümumilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi və

qələbənin üçüncü ildönümünə həsr olunmuş “Milli Təhlükəsizlik və Müasir Hərb Sənəti” mövzusunda keçirilən respublika elmi-praktiki konfrans, - Bakı: Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Milli Müdafiə Universiteti Hərbi İdarəerətmə İnstitutu, 01-02 noyabr 2023. -2023. –s.141-144.

**10.** İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan-İran münasibətləri // Beynəlxalq Münaqişələr və Sülh Prosesi mövzusunda keçirilən konfrans, - Bakı: Dövlət İdarəçilik Akademiyası, 15 aprel 2024. – 2024. –s. 125-132.



Dissertasiyanın müdafiəsi "27" 06 2024-cü il tarixində saat "11:00"-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "25" 05 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.05.2024
Kağızın formatı: A5
Həcm: 39764
Tiraj: 100